### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2013-cü İLİN MAY AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ QƏBULLARIN VƏ GÖRÜŞLƏRİN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər, qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Həzrə kəndi | 07.05.2013 | İcra nümayəndəliyi, saat 11$^{00}$ |
| Daşca kəndi | 14.05.2013 | Kənd məktəbi, saat 15$^{00}$ |
| Mirzəbəyli kəndi | 21.05.2013 | Klub müəssisəsi, saat 11$^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə, mədəniyyət və turizm şöbələrinin, hüquq-mühafizə orqanlarının, əhalinin sosial müdafiəsi, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol istismar, baytarlıq, qaz istismar, torpaq və xəritəçəkmə, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

*Çernobıl qəzasından 27 il keçir*

# XX əsrin ən böyük fəlakətlərindən biri

1986-cı il aprelin 26-da Çernobıl AES-in dördüncü blokunda texniki və texnoloji baxımından baş verən qəza Avropanı və dünyanı sarsıtdı. Böyük bir ərazi xarabazara çevrildi, yüz minlərlə adam radiaktiv şüalanmaya məruz qaldı, çarəsiz xəstəliyə, tədrici ölümə məhkum oldu. Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılmasında Azərbaycanın əsas gənclərdən ibarət 7 min nəfərdən çox vətəndaşı iştirak etmiş, həyatlarını riskə ataraq qəza bölgəsinə yollanmışdır. Azərbaycanlı gəncləri fəlakət zonasına apararkən qəzanın fəsadları barədə onları məlumatlandırmamış, bunu yanğın hadisəsi kimi qələmə vermişdilər. Fəlakət zonasına göndərilən həmyerlimizdən 2 min nəfərdən artıq dünyasını dəyişib, yüzlərlə gənc azərbaycanlı ağır dərəcəli şüalanmaya məruz qalaraq ömürlük əlil oldu.

Çernobıl faciəsindən 27 il keçməsinə baxmayaraq, bu qəzanın gətirdiyi fəlakət, radiasiya şüalarının törətdiyi xəstəliklər hələ də doğulan uşaqların səhhətində yaşayır. Lakin sovet rəhbərliyi bu amansız həqiqəti əhalidən gizlətməyə çalışdı. O zaman Nazirlər Soveti Sədrinin birinci müavini işləyən ulu öndər Heydər Əliyevin təkidi və tələbi ilə Çernobıl məsələsi Mərkəzi Komitənin bürosunda müzakirə edildi.

(Ardı 8-ci səhifədə).

# Bələdiyyələrə metodoloji yardım tədbirləri davam edir

Aprel ayının 16-da «Qafqaz Sport» otelində rayonun qəsəbə və kəndlərində fəaliyyət göstərən bələdiyyələrin sədrləri və mühasibləri üçün Şəki Regional Ədliyə Şöbəsi tərəfindən seminar-müşavirə keçirilmişdir.

Seminar-müşavirəni Şəki Regional Ədlliyyə Şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Rəhman Məmmədov açdı. O, «Bələdiyyələrin nümunəvi reqlamentinin önəmi və ondan irəli gələn vəzifələr» və «Bələdiyyələrin inzibati aktlarının məcburi icraya yönəldilməsi ilə əlaqədar qanunvericiliyin tələbləri» barədə seminar-müşavirə iştirakçılarına geniş izahat verdi. Seminar müşavirədə iştirak edən regional şöbənin aparıcı məsləhətçisi Rövzət Zəkəriyyəyev «Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin edilməsi» və Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Korrupsiyaya qarşı mübarizəyə dair 2012--2015-ci illər üçün Milli Fəaliyyət Planının icrasında bələdiyyələrin rolu» və həmin şöbənin əməkdaşı Siracəddin Rüstəmov «Bələdiyyələrin maliyyə hesabatlarının tərtibi, təsdiqi və əhaliyə çatdırılması» mövzularında məruzə etmiş, seminar-müşavirə iştirakçılarını maraqlandıran məsələlər üzrə qanunvericiliyin tələbləri izah edilmiş, onların sualları ətraflı cavablandırılmışdır.

Müşavirənin sonunda Rəhman Məmmədov vətəndaşları qəbul etmiş onların təklif və şikayətlərini dinləmiş, müraciətlərdə qaldırılan məsələlərin həll edilməsi üçün aidiyyatı qurumlara tapşırıq və tövsiyələr vermişdir.

**«QƏBƏLƏ».**

# Açıq dərs

***«Təhsil hər bir dövlətin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz».***

**Heydər Əliyev.**

Ümumtəhsil məktəblərində Azərbaycan tarixi fənninin tədrisinin əsas məqsədi yetişməkdə olan nəsildə vətənpərvərlik, fəal vətəndaşlıq mövqeyi, diqər xalqlara, ümumbəşəri humanist dəyərlərə hörmət, ənənəvi və mədəni nailiyyətlərə əsaslanan əqidə prinsipləri, dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırmaqdır. Hər bir gənc Azərbaycan tarixi fənninin öyrənilməsi sayəsində keçmiş dövrün hadisələrini sərbəst təhlil etmək, faktları ümumiləşdirmək, əldə olunan biliklərdən cəmiyyətin faydalanmasında istifadə etməyi bacarmalıdır.

Bu baxımdan müasir dərslər demokratik prinsiplərə söykənməli, bu dərslərin məzmun standartlarına əsaslanan məqsədləri müəyyənləşdirilməlidir. Dərslərin daha maraqlı keçməsi üçün hər bir müəllim İKT vasitələrindən istifadə etməli, şagirdlər üçün maraqlı məlumatlar, şəkillər, sxemlər hazırlamalıdır.Tarixi şəxsiyyətlərə və onların fəaliyyətinə münasibət bildirmək, onları müvafiq dövr baxımından qiymətləndirmək üçün iş vərəqələrindən istifadə etmək çox səmərəlidir.

Ümumtəhsil məktəblərində keçirilən tarix dərslərində hər bir müəllim qeyd olunanları nəzərə alaraq hər bir mövzu ilə bağlı şagirdlərə daha çox məlumat verməyə çalışırlar.

Bu günlərdə Heydər Əliyev Mərkəzində RTŞ-nin tarix fənni üzrə məsləhətçisi Tərbiyə İsayevanın şəhər 5 saylı tam orta məktəbin V sinif şagirdləri ilə keçirdiyi tarix dərsi olduqca maraqlı idi. Bu dərs eyni zamanda məktəblərimizin Heydər Əliyev Mərkəzi ilə sıx əməkdaşlığının bir nümunəsi sayıla bilərdi.

İlk dəfə idi ki, mərkəzin brifinq zalında dərs keçirilirdi. Dərsdə təhsil şöbəsinin əməkdaşları, Mərkəzin direktoru X. İsayeva, şəhər məktəblərinin, Böyük Pirəli, Savalan, Məlikli, Tikanlı, Vəndam qəsəbə 1 saylı tam orta məktəblərinin tarix müəllimləri, valideynlər iştirak edirdilər.



Dərsin mövzusu Azərbaycanın dahi bəstəkarı, şərqdə ilk operanın müəllifi Üzeyir Hacıbəylinin yaradıcılığına həsr olunmuşdu.

Müəllim dərsə Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başladı. Sonra şagirdlərə müraciət edərək eşitdikləri bu musiqi əsəri haqqında nə bildiklərini soruşdu. Şagirdlər bu musiqi əsərinin müəllifləri haqqında məlumat verdilər. Üzeyir Hacıbəyli haqqında şagirdlərə maraqlı məlumatlar verən müəllim dərsi qruplarla davam etdirdi.

Dərsdə «Uzun ömrün akkordları» sənədli filmindən fraqmentlər nümayiş etdirildi.

Daha sonra şagirdlər çox həvəslə dahi bəstəkar haqqında verilən suallara cavab verdilər. Dərsdə xəritə üzrə işləyən şagirdlər Ü. Hacıbəyli ilə bağlı bütün coğrafi məkanları bacarıqla müəyyənləşdirdilər. Qiymətləndirmə cədvəlində qeydlər şagirdlərlə birlikdə aparıldı.Dərsdə iştirak edən şagirdlərin və qonaqların diqqətini çəkən məqam balaca Qadirin Üzeyir Hacıbəylinin bəstəsi olan «Qaragöz» mahnısının ifası oldu. Onu fortepianoda şəhər 3 saylı məktəbin şagirdi Məlahət Nəzirova müşayət etdi.

Həmişə tarix dərslərinə xüsusi diqqətlə yanaşan Tərbiyə İsayeva bu dəfə də hər kəsin maraqlarına səbəb olan bir dərs keçirdi. Fənn kurikulumlarının müxtəlif metodlarından istifadə edən müəllim şagirdlərə daha çox məlumat verərək, onlarda Azərbaycan milli musiqisinə maraq oyatmağı bacardı. Dərs bitdikdən sonra müəllimlər təcrübə mübadiləsi xarakterli maraqlı müzakirə apardılar. Nümunə dərslərinin məktəbdə keçirilməsi artıq ənənəvi hal almışdır. Ancaq, belə dərslərin Heydər Əliyev Mərkəzində keçirilməsi yenilik idi.

Muasir dövrdə dərslərin daha praktik olmaları tələb olunur. Bu məqsədlə hər cür İKT avadanlıqları ilə təchiz olunmuş mərkəzdə keçirilən dərslər daha yüksək nəticə əldə etməyə imkan verir. İnanırıq ki, təhsil şöbəsinin məsləhətçisinin keçirdiyi dərs bütün müəllimlərimiz üçün nümunə olacaq. Dərsin maraqlı keçməsi üçün şərait yaradan və müəllimə dəstək olan mərkəzin əməkdaşlarına, onun rəhbəri Xəyalə İsayevaya təşəkkür edirik.

**Arifə BAYRAMOVA,**
**Qəbələ RTŞ-nin metodkabinetinin müdiri.**
**Foto S. Umuyevindir.**